# 2015-ci il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarətinin vəziyyəti

Naxçıvan Muxtar Respublikasının 2015-ci il ərzində 56 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi **512354,5** min ABŞ dolları olmuşdur. Bu müddət ərzində **414420,6** min ABŞ dolları dəyərində mal ixrac, **97933,9** min ABŞ dolları dəyərində mal idxal olunmuş, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo **316486,7** min ABŞ dolları təşkil etmişdir.2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2015-ci ildə ixrac əməliyyatlarının həcmi 1,4 % (5780,3 min ABŞ dolları) artmış, idxal əməliyyatlarının həcmi isə 10 % (10853 min ABŞ dolları) azalmışdır.



İxrac əməliyyatlarında xüsusi çəkisi böyük olan dövlətlərdən Türkiyə Respublikası, Türkmənistan Respublikası,İran İslam Respublikası,İsrail Dövləti,Rusiya Federasiyası,Gürcüstan Respublikası və digərlərinin adlarını çəkmək olar. Hesabat dövrü ərzində **414420,6** min ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bunun **316797,3** min ABŞ dollarını, yəni ümumi ixracın 76,4 %-ni sənaye məhsulları, **97623,3** min ABŞ dollarını, yəni ümumi ixracın 23,6 %-ni isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir. Qeyd edək ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının ixracı 1,1 %, kənd təsərrüfatı məhsullarının ixracı isə 2,6 % artmışdır.




İdxalın strukturunda əsas yeri tutan əmtəələrin miqdarı və dəyəri aşağıdakı kimidir:

| | **Dəyər(min ABŞ dolları)** |
|---|---|
| 1. Sənaye məhsulları- | 63009 |
| 2. Nəqliyyat vasitələri və onların hissələri- | 14051,3 |
| 3. Digərləri- | 13738,6 |
| 4. Ərzaq məhsulları- | 6634,1 |
| 5. Tikinti materialları- | 500,9 |

İdxal əməliyyatlarının əmtəələr üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:




İdxal əməliyyatlarının ölkələr üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:



Qeyd etmək lazımdır ki, hesabat dövründə idxal əməliyyatlarında dövlət sektorunun payı 51540,62 min ABŞ dolları, yəni ümumi idxalın 52,6%-ni, fiziki şəxslər isə 44713,51 min ABŞ dolları, yəni ümumi idxalın 45,7%-ni, özəl sektorun payı isə 1679,77 min ABŞ dolları yəni ümumi idxalın 1,7%-ni təşkil etmişdir.




2015-ci il ərzində müvəqqəti idxal rejimində muxtar respublikaya 289,8 min ABŞ dolları dəyərində, 6,01 ton mal gətirilmişdir.